http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. № 01 (1641) 16 yanvar 2017 - ci il Qiyməti 50 qəpik

## Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı



**2017-ci ildə böyük Azərbaycan şairi Molla Pənah Vaqifin anadan olmasının 300 illiyi tamam olur. Adının YUNESKO-nun "2016–2017-ci illər üçün görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri proqramı"na daxil edilməsi Azərbaycanın çoxəsrlik zəngin ədəbiyyatı tarixində silinməz izlər qoymuş bu qüdrətli söz ustasının yaradıcılığındakı humanist dəyərlərə verilən yüksək qiymətin təzahürüdür.**

Molla Pənah Vaqif öz ənənələri ilə seçilən ədəbi məktəb yaratmış ölməz sənətkardır. O, əhəmiyyətini əsrlərdən bəri qoruyub saxlayan bənzərsiz poeziya nümunələri meydana gətirməklə milli ədəbiyyatın yeni istiqamətdə inkişafına təkan vermişdir. Azərbaycan şeiri Vaqifin sayəsində tarixinin növbəti mərhələsinə qədəm qoymuşdur. Onun klassik bədii fikir salnaməmizin parlaq səhifələrindən birini təşkil edən irsi müasir dövrdə də insanların əxlaqi-mənəvi kamilləşməsinə xidmət göstərir. Azərbaycan tarixinə həmçinin siyasi xadim kimi daxil olan Vaqif taleyüklü məsələlərin həllində müdriklik və uzaqgörənlik nümayiş etdirmişdir.

Vaqifin yaradıcılığı daim tədqiq obyektinə çevrilmiş, əsərləri kütləvi tirajla nəşr edilmiş və yubileyi keçirilmişdir. 1982-ci il yanvarın 14-də ulu öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü və iştirakı ilə Azərbaycanın qədim mədəniyyət mərkəzi Şuşa şəhərində şairin məzarı üzərində ucaldılmış əzəmətli məqbərənin açılışı olmuşdur. 1992-ci il mayın 8-də Ermənistanın silahlı quldur dəstələri işğala məruz qoyduqları Şuşada bütün beynəlxalq hüquq normalarını pozaraq mədəniyyət nümunələrinə qarşı vandalizm aktları törətmiş və 600-ə yaxın tarixi-memarlıq abidəsini talayıb məhv etmiş, o cümlədən Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün ev-muzeylərini və Molla Pənah Vaqifin məqbərəsini dağıtmışlar.

Vaqif irsinin azərbaycançılıq məfkurəsi işığında daha dərindən araşdırılıb öyrənilməsi bu gün də aktuallığını qoruyan və həllini gözləyən mühüm məsələlərdəndir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Molla Pənah Vaqifin 300 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 12 yanvar 2017-ci il.

## Bu sayımızda





GÖRKƏMLİ DÖVLƏT VƏ ELM XADİMİNİN XATİRƏ İŞIĞINDA 2

20 Yanvar faciəsi milli-azadlıq tariximizin şərəfli səhifəsidir 3





ATU-da payız semestrinin imtahan sessiyasına start verilib 4



İmtahanların gedişi rektorun nəzarətindədir 5

Valideynlər imtahanların gedişini izləyiblər 4



Üz-çənə nahiyəsində nadir əməliyyat 7

Tədris Terapevtik Klinikasının kardiologiya şöbəsində yeni müayinə cihazı quraşdırılıb 5

**Yanvarın 10-da Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında görkəmli dövlət və elm xadimi Əziz Əliyevin anadan olmasının 120 illik yubileyinə həsr olunmuş geniş toplantı keçirildi.**

# GÖRKƏMLİ DÖVLƏT VƏ ELM XADİMİNİN XATİRƏ İŞIĞINDA





Tədbiri giriş nitqi ilə açan ATU-nun rektoru, professor Gəray Gəraybəyli xalqımızın və dövlətimizin tarixində dəyərli yer tutmuş insanların dünyadan köçəndən sonra yubileylərinin qeyd edilməsinin çox gözəl bir ənənə, tarixi şəxsiyyətlərin fəaliyyətinə dərin hörmətin təzahürü olduğunu, eyni zamanda gənc nəsillər üçün böyük önəm daşıdığını dedi: "Elə insanlar var ki, dünyaya gəlib getsələr də, özlərindən sonra heç bir iz qoya bilmirlər. Lakin elə şəxsiyyətlər də var ki, təkcə öz xalqının yaddaşında deyil, digər xalqların da yaddaşında silinməz izlər buraxaraq həmişə böyük minnətdarlıq hissi ilə xatırlanırlar".

Məhz belə tarixi şəxsiyyətlərin sırasında xüsusi yeri olan Əziz Əliyevi Azərbaycan tibb eiminin və tibb təhsilinin banilərindən biri adlandıran rektor onun milli kadrlarımızın yetişdirilməsi, azərbaycançılığın inkişafında əvəzsiz xidmətlərini diqqətə çatdıraraq digər istiqamətlərdə də çox mühüm işlər gördüyünü vurğuladı.

Professor Gəray Gəraybəyli tarixin heç də asan olmayan dövründə çalışan bu ləyaqətli insanın hər işi şərəflə, peşəkarlıqla, vətənpərvərliklə yerinə yetirməsindən məmnunluqla söhbət açdı: "Görkəmli dövlət xadimi Əziz Əliyevin həyatının bir hissəsi Azərbaycan Tibb Universiteti ilə bağlıdır. Universitetə rəhbərlik etdiyi illərdə Əziz Əliyev ali təhsil müəssisəsinin işini daha da təkmilləşdirdi. O zaman Azərbaycan dilində olan dərsliklər və kitablar çox az idi. Ana dilində dərsliklərin yazılmasına böyük ehtiyac duyulduğu bir vaxtda ATU-nun kitabxanası da professor Əziz Əliyevin şəxsi təşəbbüsü və bilavasitə iştirakı ilə yaradılıb".

Bu günlərdə Dağıstanın paytaxtı Mahaçqalada Əziz Əliyevin anadan olmasının 120 illiyinə həsr olunmuş yubiley tədbirində iştirak etdiyini söyləyən rektor burada diqqətini çəkən iki məqama xüsusilə toxundu: "Birinci məqam o idi ki Əziz Əliyevin müharibə şəraitində Mahaçqalada filarmoniyanın yaradılması barədə sərəncam imzalaması ehtiramla, həmin filormaniyanın fəaliyyətinin ötən əsrin 90-cı illərində dayandırılması isə təəssüflə xatırlandı. İkinci məqam isə ondan ibarət idi ki, mərkəzi rəhbərliyin tapşırığı ilə vəzifədən gedəndə onu dəmir yolu vağzalınadək böyük insan kütləsinin müşayiət etməsi hələ də unudulmayıb və yaddaşlarda xoş bir xatirə kimi yaşayır".

Tədbirdə Əziz Əliyevin mənalı ömür yolu və çoxşaxəli siyasi fəaliyyəti barədə fotoslayd nümayiş etdirildikdən sonra millət vəkili, ATU-nun təlim və tərbiyə işləri üzrə prorektoru, professor Rafiq Məmmədhəsənov görkəmli dövlət xadimi, istedadlı səhiyyə, təhsil, elm təşkilatçısı olan böyük alimin həyat və fəaliyyəti haqqında ətraflı məlumat verdi: "İrəvan gimnaziyasının məzunu olan Əziz Əliyev o dövrdə dünyanın ən nüfuzlu ali məktəblərindən biri sayılan Sankt-Peterburq Hərbi Tibb Akademiyasında təhsilini obyektiv səbəblərdən başa vura bilməsə də, sonradan Bakı Dövlət Universitetinin tibb fakültəsində təhsilini tamamlamışdır. Bir çox mühüm vəzifələrdə çalışmaqla bərabər, elmi-pedaqoji fəaliyyətlə də geniş məşğul olan gənc alim 1927-ci ildə namizədlik dissertasiyasını müdafiə etmişdir. Onun 1934-cü ildə "Eksperimental böyrək çatışmazlığı zamanı qanın biokimyəvi dəyişiklikləri" mövzusunda müdafiə etdiyi doktorluq dissertasiyası SSRİ-nin mərkəzi elmi müəssisələrində çalışan alimlərdə də böyük maraq doğurmuşdur".

Əziz Əliyevin müəllifi olduğu bir çox elmi əsərlərin, monoqrafiyaların, dərsliklərin indi də aktuallığını itirmədiyini vurğulayan R.Məmmədhəsənov bildirdi ki, 1930-cu illərin əvvəllərində Azərbaycan tibb elminin inkişafında yeni bir mərhələ başlanmışdı. 1930-cu ildə Azərbaycan Tibb İnstitutu yaradılmışdır. 1932-ci ildə Əziz Əliyevin direktor təyin olunduğu bu institut məhz onun məqsədyönlü, titanik fəaliyyəti nəticəsində respublikanın ən nüfuzlu ali təhsil ocaqlarından birinə çevrilmişdir.

"Bəşər tarixinin zənginliyi birinci növbədə onun yetişdirdiyi böyük şəxsiyyətlərlə bağlıdır" deyən akademik Adilə xanım Namazova bu mənada Əziz Əliyevi xalqımızın milli iftixarı adlandırdı. Qeyd etdi ki, o həm də xeyirxahlıq mücəssəməsi idi: "Müdriklər söyləyir ki, insanın ruhu onun qəlbindədir. Qəlb isə sənin insanlara bəxş etdiyin xeyirxah əməllərlə qidalanır, yaşayır. Belə insanlar hər əsrdə tək-tək yaranır və demək olar ki, əhalinin, xalqın ən çətin problemlərini həll etməyi bacarırlar. Dağıstanda yaşayan millətlər də onu özlərinin xeyirxahı hesab edirlər. Çünki o, Dağıstan əhalisini II Dünya Müharibəsi dövründə fəlakətdən qurtardı, onların sürgün olunmasının qarşısını aldı".

ATU-nun II cərrahi xəstəliklər kafedrasının müdiri, Elmi Cərrahiyyə Mərkəzinin direktoru, akademik Böyükkişi Ağayev qeyd etdi ki, ümumilikdə mənalı bir ömür yaşamış, siyasi, ictimai və səhiyyə sahəsinin inkişafında çox böyük xidmətləri olmuş Əziz Əliyevin yaşadığı dövr tarix üçün çox ağır illərdir. Bütün çətinliklərə baxmayaraq Əziz Əliyev öz təşkilatçılıq bacarığı, fitri istedadı ilə çox böyük işlər görmüş, Azərbaycanın ictimai-siyası həyatında müstəsna xidmətlər göstərmişdir.

İnstitutu qurtardıqdan sonra Sabirabad rayonunda cərrah işlədiyi zaman 30-cu illərdə institutu bitirmiş həkimlərin Əziz Əliyevdən tez-tez söhbət açdıqlarını, tələbələrə yaratdığı şəraitdən ürəkdolusu danışdıqlarını xatırladan akademik bildirdi ki, o vaxt belə bir şəxsiyyəti tanımadığına görə təəssüflənərdi.

1960-cı ildə Həkimləri Təkmilləşdirmə İnstitutunda onunla təxminən 15 dəqiqə çəkən görüşün təəssüratını isə indiyətək unutmadığını dedi: "O dövrdən 57 il keçməsinə baxmayaraq, onun səmimiliyi, sadəliyi, qayğıkeşliyi, yüksək ziyalılığı indi də xatirəmdə yaşayır. O çox da uzun olmayan ömrünə böyük bir məna verməyi bacarmışdı".

ATU-nun stomatologiya kafedrasının müdiri, professor Tamara xanım Hüseynova bu xeyirxah dahinin onun taleyində də böyük rol oynadığını söylədi: "Yadımdadır, V kursda oxuyurdum. Tez-tez Elm-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun nəzdində fəaliyyət göstərən cərrahiyyə şöbəsinə gedib əməliyyatlara baxırdım. O vaxt institutun direktoru Əziz Əliyev idi. Bir gün məndə arzu yarandı ki, dərsdən sonra işləyim. Bu istəyim o böyük insanın qayğıkeşliyi sayəsində həyata keçdi. Şəxsən bir stomatoloq, alim kimi yetişməyimə görə də özümü Əziz Əliyevə borclu sayıram və onun işıqlı xatirəsi önündə baş əyirəm".

Əziz Əliyevin ailəsi, övladları ilə bağlı xatirələrini də bölüşən natiqlər qeyd etdilər ki, səhiyyə, elm və təhsil sahəsinin böyük bir dövrü Əziz Əliyevin adı ilə bağlıdır. Onun tibbə aid, ana dilində nəşr edilmiş əsərləri milli səhiyyə tarixində mühüm yer tutur. Bundan əlavə, həm də nəzərə çatdırıldı ki, Əziz Əliyev müxtəlif məsul vəzifələrdə çalışarkən özünü təcrübəli dövlət xadimi və səhiyyə sahəsinin bacarıqlı təşkilatçısı kimi göstərib.

Sonda alimin nəvəsi, tibb elmləri doktoru Tamfira xanım Əliyeva babasının xatirəsinə göstərilən diqqətə görə dövlətimizin başçısı İlham Əliyevə və tədbirin təşkilatçılarına təşəkkürünü bildirdi.

Qeyd edək ki, rektor Gəray Gəraybəylinin ümumi redaktorluğu ilə ATU-da "Əziz Əliyev-120" adında kitab da nəşr olunub. Burada Əziz Əliyevin 120 illik yubileyi münasibətilə universitetdə təşkil olunan elmi-praktik konfransın materialları, o cümlədən görkəmli dövlət və elm xadiminə həsr olunmuş xatirələr yer alıb.






**Arif MƏMMƏDLİ**

# 20 Yanvar faciəsinin 27-ci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı təsdiq edilib

**◆ Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin sərəncamı ilə "20 Yanvar faciəsinin iyirmi yeddinci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı" təsdiq edilib.**

Sənəddə respublikanın şəhər və rayonlarında, o cümlədən idarə və təşkilatlarda 20 Yanvar hadisələri ilə bağlı konfrans, toplantı və mühazirələrin təşkili, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşaların göstərilməsi, bədii və sənədli filmlərin nümayiş etdirilməsi, bu tədbirlərin kütləvi informasiya vasitələrində geniş işıqlandırılması, dünya ictimaiyyətinin diqqətini faciəyə yönəltmək məqsədilə Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri və icmaları vasitəsilə müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar faciəsi barədə materialların verilməsi nəzərdə tutulub.

Tədbirlər planına əsasən, respublikanın bütün tədris müəssisələrində faciəyə həsr edilmiş xüsusi dərs keçiriləcək, 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardım veriləcək, Şəhidlər xiyabanı ərazisində lazımi işlər aparılacaq, Azərbaycanda fəaliyyət göstərən əsas dini konfessiya və qurumlar tərəfindən faciə qurbanlarının xatirəsinə dini mərasimlər təşkil ediləcək.

Bundan başqa, sərəncamda paytaxt ictimaiyyətinin yanvarın 20-də Şəhidlər xiyabanına ziyarətinin təşkili, saat 12.00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, gəmilər, avtomobillər və qatarlar vasitəsilə səs siqnallarının verilməsi, gün ərzində Şəhidlər xiyabanında matəm musiqisinin səsləndirilməsi, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində hüzn




əlaməti olaraq dövlət bayraqlarının endirilməsi və digər tədbirlər nəzərdə tutulub.

# 20 Yanvar faciəsi milli-azadlıq tariximizin şərəfli səhifəsidir

**○ 1990-cı ilin 20 yanvar faciəsinin növbəti ildönümü tamam olur. Həmin hadisələr ilbəil uzaqlaşdıqca bu hadisələrin mahiyyəti, əzəməti və zərurəti özünü daha dolğun göstərir. Bəli, zaman bizi o qanlı faciənin dəhşətlərindən uzaqlaşdırdıqca, sanki, üzərimizə daha böyük, daha müqəddəs vəzifələr düşürmüş kimi, həmin səhifələri yenidən varaqlayırıq.**

**...1990-cı il yanvarın 20-də İttifaq dövləti tərəfindən Azərbaycan xalqına qarşı hərbi təcavüz edilmişdir. Heç bir əsas olmadan, xəbər vermədən, dövlət qanunlarını kobudcasına pozaraq, Bakı şəhərinə müasir silahlı sovet ordusunun qoşun hissələri yeridilmiş, onlar vəhşilik, qəddarlıq etmiş, nəticədə nahaq qan tökülmüş, yüzlərlə adam həlak olmuş, xəsarət almış, itkin düşmüşdür.**

**Ulu öndər Heydər Əliyevin**
**1991-ci il martın 7-də**
**Azərbaycan Respublikası Ali Sovetinin sessiyasındakı çıxışından**

Və görürük ki, bu hüznün, faciənin içərisində bir məğlubedilməzlik, qəhrəmanlıq yaşamaqdadır. Müasirlərimizin, gələcək nəsillərin təpədən-dırnağadək silahlanmış qaniçən ordunun üzərinə əliyalın yeriyən insanların şahanə ölümlərini unutmaması üçün o tarixi günə dönə-dönə qayıtmalıyıq.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıya eyni vaxtda müxtəlif istiqamətlərdən qoşun hissələri yeridildi. Dinc əhali atəşə tutuldu, tanklar, zirehli maşınlar insanları



əzib keçdi. Xalqımız nə qədər faciəli gün yaşasa da, öz qanı ilə tariximizin şərəfli səhifələrini yazdı.

Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş 1990-cı ilin 20 Yanvarında ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən azadlıq fədailəri Bakının küçələrinə və meydanlarına çıxaraq Kremlin siyasətinə öz qəti etirazlarını bildirirdilər. Öz haqqını tələb edən geniş xalq kütlələrinə qarşı sovet ordusunun döyüş hissələrinin yeridilməsi Azərbaycanda misli görünməmiş faciəyə gətirib çıxarmışdı. Böyük itkilərlə, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, öz azadlığına, müstəqilliyinə can atan xalqımızın həm də mübarizliyini, əyilməzliyini, məğrurluğunu nümayiş etdirdi. Məhz bunun nəticəsində uzun illərdən bəri arzusunda olduğumuz müstəqilliyə qovuşduq və ölkəmiz suverenlik əldə etdi.

Bu hadisələr mahiyyət etibarilə Azərbaycan xalqının milli-azadlıq tarixinin qürur duyulası bir səhifəsidir, çünki bir tərəfdə azadlıq üçün mübarizə aparan xalq, digər tərəfdə isə həmin azadlığın qəsdinə durmuş sovet imperiyası dayanırdı. 20 yanvar hadisələri iradənin silaha, inamın ölümə qalib gəldiyi məqam idi. Bakının küçələri, evləri, yoldan keçən maşınları atəşə tutuldu. Həmin vaxt qoşunun gəldiyi yerlərdə bu gəlişə etiraz olaraq müqavimət pinərləri quran insanlar arasında cəmi 43 nəfər həlak olmuşdu, qalan insanlar evində, həyatında, mənzilində qətlə yetirilmişdi.

Sovet imperiyasının Bakıya 50 min nəfərə yaxın qoşun kontingenti yeritməsinə baxmayaraq, bu ordu insanları yalnız qətl edə bildi, onları diz çökdürə bilmədi və bu mənada Azərbaycan xalqı şəhidlər verməsinə, minlərlə yaralıları olmasına, yüzlərlə insanların həbslərə düşməsinə baxmayaraq, sınmadı, mübarizəni davam etdirərək milli istiqlalını qazandı.



Dünya hələ də 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycanda, onun paytaxtı Bakıda nələrin baş verdiyindən xeyli dərəcədə səthi informasiyaya malikdir.

...Həmin gün Azərbaycanın o vaxtkı rəhbərliyinin istəyi və SSRİ rəhbərliyinin əmri ilə Azərbaycanda kommunist rejimini saxlamaq və milli azadlıq hərəkatını boğmaq məqsədilə Bakıya böyük bir ordu yeridilmişdi. SSRİ Müdafiə Nazirliyi, DİN və DTK-nın hazırlayıb həyata keçirdiyi «Udar» adlı əməliyyatda əsas rolu xüsusi təyinatlı «ALFA» və SSRİ DTK-nın «A» təxribat qrupları oynayırdı. Sovet qoşunlarının təcavüzü nəticəsində Bakıda 135 mülki vətəndaş öldürülmüş, 600-dən çox adam yaralanmışdı. Öldürülənlər arasında beş millətin nümayəndələri, 20-dən çox qadın, uşaq var idi. Hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, külli miqdarda dövlət və şəxsi əmlak məhv edildi.

20 Yanvar hadisəsi həm də Azərbaycan genetikası üçün də faciə yaradıb. Yanvarın 19-23-ü arası dünyaya gələn 403 nəfər uşağın 96 nəfəri cəmi 2 gün yaşayıb. 68 nəfər isə doğuş zamanı tələf olub. 19 ana öz körpəsi ilə dünyasını dəyişib. Təkcə Bakıda 281 nəfər stres vəziyyətində olub. Onların 619 nəfəri bu günədək ayrı-ayrı poliklinikalarda qeydə alınıb. 193 nəfəri Türkiyədə, 92 nəfəri isə İranda müalicə alıb.

1990-1992-ci illər arasında Bakıda şəkər xəstəliyi 7,5 dəfə, ürək - damar xəstəlikləri 4,8 dəfə, əsəb xəstəlikləri 8 dəfə artıb, 57 nəfərin gözləri kor olub.

20 Yanvar faciəsinə tam siyasi-hüquqi qiymətin verilməsi ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra mümükün oldu.

1994-cü il martın 29-da "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" adlı xüsusi qərar qəbul edildi. Beləliklə, Heydər Əliyevin təkidi və rəhbərliyi sayəsində xalqımıza qarşı törədilən bu qanlı və qəddar aksiyaya siyasi-hüquqi qiymət verildi. Ümummilli liderin 2000-ci ildə 20 Yanvar faciəsinin 10-cu ildönümü haqqında imzaladığı fərmanda deyilirdi ki, XX əsr tarixində totalitarizmin törətdiyi ən qanlı terror aktlarından biri olan 20 Yanvar faciəsində Azərbaycan xalqına qarşı işlədilmiş cinayət, əslində, bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli bir əməldir.

Bu gün 20 Yanvar iştirakçıları və şəhid ailələri dövlətin daim diqqət mərkəzindədir. Prezident İlham Əliyev şəhidlərin adının uca tutulmasına, onların ailələrinin sosial məsələlərinin yoluna qoyulmasına xüsusi qayğı göstərir.

Həmin qanlı hadisələrdən illər keçməsinə baxmayaraq, xalqımız o müdhiş gecəni daim xatırlayır, faciəni törədənlərə öz dərin nifrətini bildirir. Xalqımızın qan yaddaşında əbədi yaşayacaq 20 Yanvar faciəsini respublikamız hər il Ümumxalq Hüzn Günü kimi geniş qeyd edir. Bu cinayət hadisəsi bütün dünyaya tarixi faktlar və həqiqətlər əsasında çatdırılır.

Bakının ən möhtəşəm məkanında torpaq uğrunda canlarını fəda etmiş igid Vətən övladlarının uyuduğu Şəhidlər xiyabanı xalqımız üçün müqəddəs bir and yerinə, milli iradəmizin şərəfli ünvanına çevrilib.

Azərbaycan xalqı bu ötən 27 il ərzində Şəhidlər Xiyabanında dəfn edilən 20 Yanvar şəhidlərinə və eləcə də Qarabağ müharibəsi şəhidlərinə hörmət və ehtiramını bildirmək üçün Şəhidlər xiyabanına gələrək onların müqəddəs qəbirlərini ziyarət edir.

Bu gün bizim üçün Azərbaycanın dövlət müstəqilliyinin əbədiləşdirilməsindən müqəddəs vəzifə ola bilməz.

Bu gün planetin istənilən nöqtəsində yaşayan soydaşlarımız və eləcə də müttəfiqlərimiz dünya xəritəsindəki qüdrətli Azərbaycan dövlətinin uğurlarına sevinir, xalqımızın öz müstəqilliyini əbədiləşdirmək üçün atdığı qətiyyətli addımları ilə fəxr edirlər.

Daha böyük qələbəmiz isə torpaqlarımızın işğaldan tamamilə azad ediləcəyi gün olacaq. Həmin gün isə uzaqda deyil.

**MƏNSUR ƏLƏKBƏRLİ**

# ATU-da payız semestrinin imtahan sessiyasına start verilib

Dekabrın 26-da Azərbaycan Respublikasının Təhsil Naziri "Ali təhsil müəssisələrində 2016/2017-ci tədris ilinin payız semestrinin imtahan sessiyasının təşkili və keçirilməsi barədə" 849 saylı əmr imzalayıb. Həmin əmrin tələblərinə uyğun olaraq, ATU-da 2016/2017 ci tədris ilinin payız semestrinin imtahan sessiyasına start verilib.

ATU-nun rektoru, professor Gəray Gəraybəyli bu ərəfədə semestr imtahanlarının mütəşəkkil keçirilməsi, aşkarlıq, obyektivlik şəraitində aparılması ilə əlaqədar olaraq, ATU-nun fakültə dekanlarını, kafedra və şöbə müdirlərini əmrin məğzi ilə tanış edib və onları məqsədyönlü şəkildə maarifləndirib.

Qeyd edək ki, sessiyanın təşkili ilə bağlı rektor G.Gəraybəyli tərəfindən ATU üzrə 586/T saylı 04 noyabr 2016-cı il tarixli əmri imzalanıb. Həmin əmrə müvafiq olaraq universitetin tədris və müalicə işləri üzrə prorektoru, tədris şöbəsi, ayrı-ayrı dekanlıqlar və kafedralar, virtual test mərkəzi, tədris-metodik və innovasiya şöbəsi qarşısında icra olunması çox vacib olan vəzifələr qoyulmuş və onlar bu vəzifələrin öhdəsindən gəlməyə çalışmış, nəzərdə tutulan əksər işlər artıq başa çatdırılmışdır. Əmrə əsasən imtahanların təşkili ilə əlaqədar operativ qərargah yaradılıb.

Bundan əlavə, 2016/2017-ci tədris ilinin payız semestri imtahanlarının təşkili və mütəşəkkil keçirilməsi ilə bağlı universitetdə dəfələrlə toplantılar keçirilib, müzakirələr aparılıb. Həmçinin payız semestrinin imtahan sessiyasına hazırlıq, onun obyektivlik şəraitində keçirilməsi fakültə elmi şuralarında, kafedra əməkdaşları ilə tələbələrin birgə müşavirələrində də geniş müzakirə olunub.







Rektorluq şurasında aparılan müzakirələrin nəticəsi kimi kompyuter vasitəsilə, test üsulu ilə aparılan imtahanların modernləşdirilməsi məqsədilə qərar qəbul edilib və I kursdan başlayaraq sualların 50-dən 25-ə endirilməsi qərara alınıb. Hər sual 2 balla qiymətləndiriləcək. 20 sual tələbələrin nəzərinə çatdırılan suallardandır, 5 sual isə qapalı və çoxcavablı olacaq. Beləliklə, hətta sualları əzbərləyən tələbə belə bütün hallarda «əla» qiymət ala bilməyəcək. Tələbə «əla» və «çox yaxşı» qiymət ala bilmək üçün dərsliyi oxumalı, gündəlik təhsilinə ciddi fikir verməlidir.

II-VI kurs tələbələri üçün isə sualların bir qrupu yenidən işlənilib və onlar miqdarca artırılıb.

Hazırda ATU-da imtahanlar davam edir. Bu semestrdə ATU-nun I müalicə-profilaktika fakültəsi üzrə 1996, tibbi-profilaktika fakültəsi üzrə 469, II müalicə-profilaktika fakültəsi üzrə 2056, stomatologiya fakültəsi üzrə 752, əczaçılıq fakültəsi üzrə 377, hərbi tibb fakültəsi üzrə isə 479 tələbə imtahan verəcəkdir.

Qeyd edək ki, ATU-da imtahanlar dekabrın 29-dan start götürüb və cari ilin fevral ayının 1-nə qədər davam edəcək. İmtahanları istənilən valideyn gəlib şəxsən izləyə bilər. Bunun üçün universitet rəhbərliyi tərəfindən hər cür şərait yaradılıb.

# Valideynlər imtahanların gedişini izləyiblər

**Azərbaycan Tibb Universiteti (ATU) semestr imtahanlarının təşkilində və gedişində şəffaflığın tətbiqini təmin edib. Belə ki, son illərdə ilk dəfə olaraq valideynlər də imtahan prosesini əvvəldən axıra qədər müşahidə edə bilirlər.**

Yanvarın ayının 6-dan etibarən imtahanı izləmək istəyən hər bir valideynə prosesdə iştirak etmək imkanı yaradılıb. İmtahanlar ATU-nun Virtual Test Mərkəzində keçirilir.

Sınaqdan öncə Virtual Test Mərkəzinin rəhbəri Şahin Bayramov və ATU-nun imtahana nəzarət qrupunun rəhbəri Kamandar Yaqubov tələbələrlə görüşüblər, onlara prosesin gedişi, qaydalar və şərtlər barədə ətraflı məlumat veriblər. Valideynlərə də bildirilib ki, obyektivliyin qorunması məqsədilə Azərbaycan Tibb Universitetində imtahanlar insan amili olmadan kompyuterlərdə test üsulu ilə aparılır. İmtahan zamanı hər tələbə öz məxfi kodu ilə sistemə daxil olaraq sualları cavablandırır və sonda imtahanın nəticəsini görərək zalı tərk edir. İmtahanların gedişinə müşahidə kameraları və imtahanlara nəzarət qrupunun əməkdaşları tərəfindən nəzarət olunur.

Valideynlərin özləri də imtahanın keçirilməsi, hansı səviyyədə nəzarətin olmasını yaxından izləyiblər. Müalicə-profilaktika fakültəsinin II kurs tələbəsi Lamiyə Adışirinlinin atası Ələddin bəy gördüklərindən razı qaldığını bildirdi: "Mən imtahanların test üsulu ilə keçirilməsini dəstəkləyirəm. Çünki burada ayrı hansısa kənar qüvvələrin təsirinə, müdaxiləsinə imkan verilmir.





Tələbənin üzərinə böyük məsuliyyət düşür. ATU-rəhbərliyinə də təşəkkür edirəm ki, imtahanların obyektivliyi üçün hər cür şərait yaradılıb".

Müalicə-profilaktika fakültəsinin tələbəsi Fəridə Şərifzadənin babası Xəlil bəy müasir dövrdə aparılan imtahanların daha fərqli və daha şəffaf olduğunu deyir: "Burada yaradılan imtahan sistemindən tamamilə razı qaldım. Əziyyət çəkmək lazımdır ki, bəhrəsini görəsən. Bizim dövrümüzdə imtahanlar daha asan idi, indi isə tələbələrin işi daha məsuliyyətli və çətindir. Sadəcə Azərbaycan dilində yetərincə dərs vəsaitinin olmaması bizi narahat edir. İnanıram ki, rektor bu məsələnin həlli ilə bağlı addımlar atacaq".

ATU-nun I müalicə-profilaktika fakültəsinin tələbəsi Səidə Dadaşovanın atası isə imtahan öncəsi verilən məlumatların kifayət qədər dolğun olduğunu bildirir: "İmtahan üçün yaradılan şəraitə söz ola bilməz. Amma arzulayardım ki, test sualları ilə bağlı da tələbələrin istəkləri nəzərə alınsın. Çünki bəzi sualların verilən cavab variantları tələbələri çox çaşdırır. Ümid edirəm ki, bu məsələyə də diqqət yetiriləcək".

I müalicə-profilaktika fakültəsinin tələbəsi Gülay Ömərovanın anası da imtahan prosesinin gedişini izləyən valideynlərdən biridir. O, qızının Prezident təqaüdçüsü olduğunu vurğulayır və prosesdən razı qaldığını bildirir.

Müxtəlif qruplardan olan tələbələr tamamilə şəffaf şəraitdə onlara ayrılan 1 saat ərzində test suallarını cavablandırıblar. Gənclər onlara ayrılan vaxt ərzində 50 sualı cavablandırmalıdırlar. İmtahan zamanı yığıla biləcək ən yüksək bal 50-dir və Virtual Test Mərkəzində 220 kompyuter tələbələrin ixtiyarına verilib. Gün ərzində bu mərkəzdə 2500-3000 tələbənin imtahan verməsi mümkündür.

ATU-da imtahan sessiyası fevralın 1-dək davam edəcək.

**Qabil Abdullayev**

**Fotolar Cənnətalı Çingizindir**

# Tədris Terapevtik Klinikasının kardiologiya şöbəsində yeni müayinə cihazı quraşdırılıb

**Yanvarın 11-də Azərbaycan Tibb Universitetinin Tədris-Terapevtik Klinikasının Kardiologiya şöbəsi innovativ restrukturizasiya və modernləşmə işlərinin müvəffəqiyyətlə başa çatdırılmasından sonra fəaliyyətini tam şəkildə bərpa edib.**

Qeyd edək ki, klinikanın bu şöbəsinin bir hissəsi müayinələr, digər hissəsi isə stasionar müalicə məqsədilə qəbul olunmuş xəstələr üçün nəzərdə tutulub. Angioqrafiya, stend və başqa müəyyən invaziv müayinələrə aid cihazlar isə klinikanın birinci mərtəbəsində quraşdırılıb. Kardiologiya ilə bağlı hər bir lazımi və müasir avadanlıqlara burada rast gəlmək mümkündür. Kardialogiya şöbəsində xüsusi qeydiyyat otağı və 9 palata fəaliyyət göstərir.

ATU-nun rektoru, professor Gəray Gəraybəyli Tədris Terapevtik Klinikanın yenicə istifadəyə veriləcək kardiologiya şöbəsi ilə tanış olaraq, belə yeniliklərin çox vacib olduğunu qeyd etdi. Burada quraşdırılan avadanlıqlarla tanış olan rektor, mərkəzin qurucuları və klinika rəhbərliyi ilə bir sıra fikir mübadiləsi apardı.

Rektor G.Gəraybəyli bildirdi ki, əvvəlcə ATU-da təhsil alan tələbələr, rezidentlər bu yeniliklərlə tanış olmalı, lazımi biliklər əldə etməlidirlər. Rektor bu yeni mərkəzdə tezliklə həkimlər tərəfindən aparılan pre-invaziv, invaziv müdaxilələrin dərs otağına tələbələr üçün translyasiya edilməsinin tədrisdə çox vacib bir yenilik olduğunu qeyd etdi: "Bizim yeniliklərimiz iki yönlüdür - bir tərəfdən xəstə məmnuniyyəti və digər tərəfdən tələbə təhsili. Buna görə də ilk olaraq, burada aparılan işləri tələbələr praktik olaraq görməlidirlər ki, əldə etdikləri biliklər və praktik vərdişlər onların dərslərinə bilavasitə kömək olsun. Dərs otağında belə bir şəraitin yaradılması olduqca vacibdir".

Mərkəzin rəhbəri Fərid Əliyev bildirdi ki, Azərbaycanda texniki baxımdan müasir olan və hazırda bu cür incəlikdə, dəqiqlikdə exokardioqrafiya edən, mürəkkəb diaqnostik prosedurları belə dəqiqliklə həyata keçirən ikinci bir mərkəz yoxdur.

Qeyd edək ki, sözügedən mərkəzdə



Azərbaycanda ilk dəfə olaraq "Trans-telifonik EKQ holter" müayinəsi cihazı da yerləşdirilib. Bu aparat ürəkdə baş verən gündəlik dəyişikliklərin izlənilməsi üçün ən son və ən yeni avadanlıqdır.

Azərbaycanda ilk dəfə ATU-nun Tədris Terapevtik Klinikasının kardiologiya şöbəsinin poliklinikasında quraşdırılan bu aparat, eləcə də digər innovativ cihazlar həm klinikada müayinə və müalicə olunan xəstələr, həm də bu müalicə və tədris müəssisəsində təhsil alan tələbə və rezidentlər üçün tibb elminin kardiologiya sahəsinin ən son nailiyyətlərinə əsaslanan unikal yeniliklərdir. Bu yeniliklərdən hər kəs bəhrələnə bilər.

# İmtahanların gedişi rektorun nəzarətindədir

**Yanvarın 12-də ATU-nun rektoru professor Gəray Gəraybəyli ATU-da keçirilən imtahanlara baxış keçirib.**



Rektor G.Gəraybəyli imtahanların gedişi ilə maraqlanaraq, nəzarətçilər və tələbələrlə söhbətlər aparıb. Tələbələrlə yaxından maraqlanan rektor, onların imtahanın gedişi ilə əlaqədar fikirlərini, təklif və iradlarını dinləyib.



İmtahanları istənilən valideynin izləməsi üçün universitet rəhbərliyi tərəfindən lazımi tədbirlər görülüb. Artıq bir neçə valideyn imtahanlarda iştirak edib, yaradılan şəraitlə yaxından tanış olublar və bu haqda pozitiv münasibətlərini bildiriblər.

Görüşün sonunda rektor G.Gəraybəyli imtahan aparılan binanın, həmçinin digər binaların təhlükəsizliyinin mühafizəsinin təmini ilə bağlı tövsiyələrini verib.

**ATU-nun mətbuat xidməti**

# ATU tələbələri fastfood-un ziyanlarını açıqladılar

Azərbaycan Tibb Universitetinin tələbələri «Gənc Həmkarlar İttifaqı lideri məktəbi» kompleks proqramı çərçivəsində keçirilən müsabiqə üçün sosial çarx hazırlayıblar. «Sağlamlıq - Sağlam Həyat Tərzi» mövzusunda hazırlanan bu video gənclərin sağlam həyat tərzinə həsr olunub.



10 dəqiqə davam edən video-çarx maraqlı formatda hazırlanıb. Burada "Sağlamlıq nədir?" və "Sağlam həyat tərzi necə olmalıdır?" mövzuları ümumilikdə əhatə olunub. Videoda gənclərin qida seçimi, fiziki məşğuliyyətləri, gündəlik davranışlarında yol verdikləri səhvlər açıq-aşkar göstərilib, tələbələr qınağa çəkilib. Burada fast-food ziyanları, az hərəkət etməyin fəsadları və digər məqamlar haqqında məlumat verilib.

ATU Tələbə Həmkarlar İttifaqı Komitəsinin bu layihəsi komitənin sədri Elşad Novruzovun birbaşa iştirakı və dəstəyi ilə baş tutub. Çarxın yaradıcı heyəti ATU tələbələrindən ibarətdir. Layihə müəllifləri Malik Şükürlü və Nuran Sadəddinli, rolların ifaçıları isə Orxan Aslanlı, Əvəz Zeynallı, Nigar Əhmədova, Nuran Sadəddinli, Dursun Həsənov və Füzuli Namazov olublar.

# DST: siqaret çəkmə əleyhinə mübarizə həyatları xilas edir və iqtisadi fayda gətirir

Dünya Səhiyyə Təşkilatı və ABŞ Milli Xərçəng İnstitutu "Tütün və tütün sənayesinə nəzarət iqtisadiyyatı" adlı növbəti məruzəsini dərc ediblər. Məruzədə deyilir ki, bir milyarddan çox adam siqaret çəkir, insanlar siqareti getdikcə daha tez-tez tərgidirlər, lakin siqaret çəkənlərin ümumi sayı əhalinin artması hesabına azalmaq bilmir. Buna görə də hökumətlər məhdudlaşdırma siyasəti yürütməli, passiv siqaret çəkməni məhdudlaşdırmalı və vergiləri artırmalıdırlar.




AZƏRTAC Dünya Səhiyyə Təşkilatına (DST) istinadla xəbər verir ki, DST və ABŞ Milli Xərçəng İnstitutunun məlumatlarına əsasən, hər il 6 milyon adam siqaret çəkməyin fəsadlarından ölür və DST-nin bu məruzədəki proqnozuna görə, bu rəqəm 2030-cu ilə qədər artaraq 8 milyon nəfərə çatacaq.

Məruzədə çox maraqlı statistika gətirilib. Yaşı 15-dən çox olan adamların təqribən 21 faizi (1,1 milyard nəfər) siqaret çəkir. Kişilərin 35 faizi və qadınların təqribən 6 faizi siqaretə qurşanıb.

Bununla bərabər, siqaret çəkmək dəbdən düşür. Bütün ölkələrdə, bütün yaş qrupları üzrə və gəlirlərdən asılı olaraq getdikcə daha az siqaret çəkirlər. Amma əhalinin artması səbəbindən siqaret çəkənlərin sayı azalmır. Yüksək gəlirli ölkələrdə yetkinlik yaşına çatmayanların siqaret almaq imkanları səmərəli satış qaydaları ilə məhdudlaşdırılıb. Yoxsul ölkələrdə də belə məhdudiyyətlər tətbiq edilir, amma bu məhdudiyyətlər effektiv olmur.

Siqaret çəkənlərin təxminən 80 faizi orta və aşağı gəlirli dövlətlərdə, kobud deyilsə, üçüncü dünya ölkələrində yaşayır. Siqaretə qurşananların təxminən 21 faizi (226 milyon nəfər) çox yoxsuldur. Bütün tütün narkomanlarının təxminən yarısı Cənub-Şərqi Asiyada yaşayır. Şərqi Aralıq dənizi hövzəsi və Afrika ölkələrində də siqaret çəkənlər çoxdur.

Məruzə müəlliflərinin fikrincə, tütün çox zərərlidir. Hesab olunur ki, bütün dünyada yaşı otuz və otuzdan yuxarı olan adamlar arasında ölüm hallarının 12 faizinin səbəbi tütündür.

Məruzə müəllifləri siqareti tərgitmək istəyənlərə mərkəzləşdirilmiş şəkildə yardım göstərilməsinin böyük əhəmiyyət daşıdığını xatırladırlar. Onlar birbaşa iqtisadi faydanı təsdiqləyən tədqiqatlara istinad edirlər.

## Mütəxəssis sözü

# Baş nevroloq: Qəflətən yaranan baş ağrıları beyin şişlərinin ilkin əlaməti ola bilər

**Son zamanlar hər kəsi narahat edən və müxtəlif xəstəliklərin təzahürü kimi meydana çıxan əlamətlərdən biri də baş ağrılarıdır. Bunun səbəbləri nədir? Səhiyyə Nazirliyinin baş nevroloqu, tibb elmləri doktoru, nevrologiya və tibbi genetika kafedrasının müdiri, professor Şərif Mahalov bu gün hər kəsi narahat edən baş ağrılarından danışır.**



**– Şərif müəllim, son zamanlar hər birimizi narahat edən və müxtəlif xəstəliklərin təzahürü kimi meydana çıxan əlamətlərdən biri də baş ağrılarıdır. Bunun səbəbləri nədir?**

– Baş ağrısı – həkimlik təcrübəsində ən çox rast gəlinən şikayətlərdir. Bu hal təkcə başda deyil, bütün orqanizmdə narahatlıq hissi ilə müşayiət olunur. Baş ağrılarını 2 əsas kateqoriyaya bölmək olar: birincili və ikincili.

Birincili baş ağrılarına–miqren, gərginlik baş ağrıları, klaster baş ağrıları, struktur dəyişiklik ilə əlaqəsi olmayan müxtəlif tip baş ağrıları aiddir. Simptomatik baş ağrılarına isə başın travması, damar patologiyası, kəllədaxili qeyri-damar patologiyası, müəyyən maddələrin qəbulu və ya onlardan imtina, infeksiya, metabolik pozğunluqlar, kəllə, boyun, göz, burun, burun ətrafı ciblər, diş, ağız və digər kəllə və üz strukturlarının patologiyası ilə əlaqədar olan baş ağrıları aid edilir.

Baş ağrılarının çox səbəbləri var. Bunlar arterial təzyiqin dəyişməsi, baş beynin iltihabı, travması və şişləri, nevralgiyalar, vegetativ disfunksiya, gün və istivurma-intoksikasiyası və s. Baş ağrıları qədər müxtəlifliyi olan başqa əlamət yoxdur.

Baş ağrıları uzunmüddətli, göynədici, kəskin, eyni zamanda dözülməz olmaqla bütün başı əhatə edə və ya ancaq gicgah nahiyəsində lokallaşa bilər.

İkitərəfli göynədici baş ağrıları bir sıra hallarda arterial hipotoniyanı müşayiət edir. Bu tip baş ağrıları adətən yuxudan sonra səhər saatlarında meydana gəlir və gicgah nahiyələrini əhatə edir.

**– Psixogen baş ağrıları necə yaranır?**

– Bu növ baş ağrıları da son vaxtlar çox geniş yayılıb. Bu ad altında psixiki və fiziki xarakterli gərginlik, o cümlədən həyəcan vəziyyətində və depressiyada meydana gələn baş ağrıları birləşdirilir. Belə hallarda ağrının xarakterini təsvir etmək çətin olur. O, göynədici, sıxıcı, ənsə, alın və ya gicgah



nahiyələrində məhdudlaşa, həmçinin bütün başı əhatə edə bilər.

Baş ağrısı miqrenin əsas, hətta yeganə təzahürüdür. Miqrenin bir sıra formaları var. Bu zaman ağrı üzdə meydana gələ, qəfləti, qısamüddətli və intensiv ("İldırımsürətli") ola bilər. Bəzən ağrılar biri digərini əvəz edərək bir neçə gün davam edə, ürəkbulanma və qusma ilə müşayiət oluna bilər.

Xorton (histamin) baş ağrıları periodik olaraq qısa tutmalarla (15 dəqiqə – 2 saat) təzahür edir. Adətən, belə baş ağrıları ya gecə vaxtı, ya da səhər meydana gəlir. Ağrı çox güclü, yandırıcı, deşici olur, qəflətən meydana gəlir və başın bir tərəfində göz nahiyəsində məhdudlaşır. Xorton baş ağrıları əsasən 20 yaşdan yuxarı kişilərdə rast gəlinir.

Əgər baş ağrıları zökəm əlamətləri ilə təzahür edirsə, bu hal beyin qişalarının iltihabı – meningit haqqında düşünməyə əsas verir. Meningit zamanı baş ağrıları güclü olur, gözə təzyiq edə, ürəkbulanma və qusma ilə müşayiət oluna bilər.

**-Son zamanlar insanlar qəfləti başlayan kəskin baş ağrılarından əziyyət çəkirlər. Bunun səbəbləri nədir?**

– Qəfləti başalayan kəskin baş ağrıları (huşun itməsi və bədənin müəyyən nahiyəsinin hissiyyatın itməsi ilə gedən) baş beyinə qansızma zamanı meydana gəlir. Adətən, bu hal arterial təzyiqin yüksəlməsi və beyin damarlarının aterosklerozu zamanı ortaya çıxır. Ona görə belə hallarda "Təcili yardım"ı vaxtında çağırmaq lazımdır.

Əgər baş ağrısı qəflətən meydana gəlir, tez zamanda müntəzəm və intensiv olursa, nevroloqa müraciəti gecikdirmək olmaz. Belə ağrı baş beyin şişlərinin ilkin əlaməti də ola bilər.

Adətən, baş ağrısı kəllə nahiyəsindən kənara çıxmır. Məsələn, boyun nahiyəsinin osteoxondrozu, spondiloartriti, radikulit çox vaxt baş ağrıları ilə müşahidə olunur. Alın və gicgah nahiyəsində olan ağrılar burun ətrafı ciblərdə olan iltihab – haymorit və ya frontit zamanı ola bilər. Baş ağrısı və üzdə olan keyimə, adətən, üçlü sinirin nevralgiyası və üz sinirinin neyropatiyası zamanı olur.

Baş ağrılarının digər forması toksiki baş ağrısıdır. Bu hal bəzi maddələrlə zəhərlənmələr və ya dərman preparatlarının qəbulundan sonra yarana bilər.

Axıcı baş ağrıları tam sağlam insanlarda qapalı məkanlarda meydana gələ bilər (beyinə oksigen çatışmazlığı nəticəsində). Bu hal dəm qazı, avtomobil qazları, boya buxarlanması, kəskin ətirlər tərəfindən baş verə bilər. Güclü baş ağrıları gün və istivurma zamanı da yaranır.

Gördüyünüz kimi, baş ağrılarının bir çox səbəbləri var. Bu, təəccüblü hal deyil, çünki ağrı orqanizmin təhlükə anında verdiyi siqnaldır. Belə siqnallarda ağrının baş beyni və onun ətrafındakı toxumalarla əlaqəli şəkildə yayılması daha ciddi əlamət kimi sayılmalıdır.

**– Bəs baş ağrıları zamanı müxtəlif dərmanlardan istifadə etməyin nə kimi təhlükəsi var?**

– Belə vəziyyətdə çox miqdarda ağrıkəsici preparatlar qəbul etmək təhlükəlidir. Bu, ciddi fəsadlarla nəticələnə bilər.

Bundan başqa, analgetiklərin uzun müddətli qəbulu baş beynin ağrı əleyhinə mərkəzinin süstləşməsinə və yeni azbus (dərmanlar tərəfindən törənən) baş ağrılarının meydana gəlməsinə səbəb ola bilər. Baş ağrılarının profilaktikası məqsədi ilə beyin damarlarını yüngül fiziki yüklə məşq elətdirmək, təmiz havada olmaq, dərmanlardan hədsiz dərəcədə istifadə etməmək lazımdır. Əgər baş ağrısı davamlı olarsa, özü-özünü müalicə etməklə məşğul olmaq əvəzinə, təxirə salmadan nevroloq-həkimə müraciət etmək lazımdır.

**Pərvin ARZUQIZI**

## Qalib Qarayev-70

# Səmimi insan, dəyərli elm adamı

**Azərbaycan tibb elminin inkişafında müstəsna xidmətləri olan tanınmış alim, ATU- nun Elmi Tədqiqat Mərkəzinin direktoru, Rusiya Federasiyasının Tibbi-Texniki elmlər Akademiyasının akademiki, əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Qalib Şalon oğlu Qarayevin bu günlərdə 70 yaşı tamam olur.**



Qalib Qarayev 1947- ci il yanvarın 17- də respublikamızın füsunkar yerlərindən biri, ermənilərin işğalı altında olan Füzuli rayonunun Qarğabazar kəndində ziyalı ailəsində dünyaya gəlib. O, 1953-cü ildə dogma kənddə məktəbə gedib və 1963-cü ildə həmin məktəbi əla qiymələrlə başa vurub. 1966- cı ildə isə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun pediatriya fakültəsinə daxil olub.

O, hələ tələbəlik illərində TEC-in fəal üzvü olmuş, biokimya, patofiziologiya, uşaq cərrahlığı kafedralarında METL-də fəaliyyət göstərən tələbə elmi dərnəklərində çalışaraq elmin sirlərinə bələd olmuşdur. 1970-il də keçmiş Sovetlər İttifaqının "Ən yaxşı tələbə işi" müsabiqəsində onun "Ürəyin işemik xəstəliyinin cərrahi müalicəsi" adlı eksperimental tədqiqat işi bürünc medala layiq görülmüşdür. Həmin tədqiqat işi İ.İ.Pavlov adına Leninqrad Tibb İnstitutunun fakultetiv cərrahlıq kafedrasının müdiri, a.e.x., professor V.Kolosovun diqqətini cəlb etmiş və sonralar bu, gənc tədqiqatçının taleyində mühüm rol oynamışdır.

İnstitutu bitirərkən onun elmə bağlılığını nəzərə alan rəhbərlik Elmi Şuranın qərarı ilə bu istedadlı məzunu Mərkəzi Elmi Tədqiqat Laboratoriyasına kiçik elmi işçi vəzifəsinə təyin edir. 1972-1976-cı illərdə Q.Qarayev elmi axtarışlarını tac damar cərrahlığının pioneri sayılan V.Kolosovun məktəbində davam etdirmişdir.

Bu elmi araşdırmaların nəticəsi əsasında O, 1979-cu ildə "Tac damarların elektrotermokoaqulyasiya və ürək əzələsini bilavasitə revaskularizasiya edən bir sıra metodların müqayisəli qiymətləndirilməsi" mövzusunda dissertasiya müdafiə edərək tibb elmləri namizədi, 1987-ci ildə isə SSRİ TEA-da "Ürəyin pozulmuş limfadrenajının tənzimlənməsi və onun kəskin miokard infarktı şəraitində ürək əzələsinin birbaşa revaskulyarizasiyasında rolu" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək tibb elmləri doktoru adını almışdır. Daim elmi axtarışlarda olan alim miokard infarktı zamanı baş vermiş və həyat üçün təhlükə törədə bilən aritmiyalarında əmələ gəlmə mexanizmlərini araşdıraraq onun yeni müalicə metodlarını işləyib hazırlamışdır. Qalib müəllimin tədqiqat sahələrindən biri də peritonitlərə dair aparılan elmi axtarışlardır. Bu tədqiqat nəticəsində müəyyən edilmişdir ki, peritonit zamanı həyat üçün ən təhlükəli olan peritonial intoksikasiya sindromunun inkişafında müsariqə limfa düyünlərinin rolu müəyyən edilmişdir. Bundan başqa onun elmə yenicə məlum olan "Atrial natrimuretik faktorlar" haqqında aparılan elmi araşdırmalardır.Elmə ilk dəfə 1956-cı ildə məlum olan bu faktor əsasında professor Q.Qarayevin apardığı tədqiqatlarla onun bir sıra patoloji hallarını konpensasiya etmək üsulları aşkar edilmişdir. Nəhayət, onun tədqiqatlarından biri də bağırsaqların autotransplantasiyasına həsr edilmişdir. Bu sahədə qalça bağırsaqdan istifadə etməklə yoğun bağırsağın müxtəlif həcmli defektlərinin plastikasının aparılma texnikası işlənib hazırlanmışdır.

Bir sözlə, professor Q.Qarayev geniş diapozona malik alimdir və özünəməxsus bir elmi məktəb yaratmışdır. Onun rəhbərliyi altında 56 nəfər elmlər namizədi və elmlər doktorları hazırlanmışdır. O, 22 ixtiranın, 410 elmi məqalənin, 1 dərs vəsaitinin, 1 monoqrafiyanın və 1 qrant layihəsinin müəllifidir. Professor Q.Qarayevin əsərləri Amerika, Almaniya, İngiltərə, Çexiya və s. ölkələrin alimlərinin diqqətini cəlb edib. "Limfilogiya" (Əndijan Özbəkistan), "Cərrahiyyə", "Müasir səhiyyənin elmi və praktik nailiyyətləri", "Perinotologiyanın müasir problemləri" elmi jurnallarının redaksiya heyətinin üzvüdür.

Qalib müəllim xüsusi istedada malik alim olmaqla yanaşı, eyni zamanda yüksək səriştəli müəssisə rəhbəri və fəal ictimaiyyətçidir.

1982-ci ildə METL-in direktoru vəzifəsinə təyin edilən Qalib müəllimin rəhbərliyi ilə qısa bir müddətdə laboratoriyanın maddi- texniki bazası möhkəmləndi, elmi potensialı yüksəldi. 1984-cü ildə Sovet-Amerika birgə tədqiqat planının bir mərhələsinin aparılması bu laboratoriyaya həvalə olundu. Elmi-tədqiqat işlərinin artmasını nəzərə alan Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə laboratoriyanın ştat vahidi artırılaraq 108 nəfərə çatdırıldı. 5 mərtəbəli müasir tipli bina tikildi və az keçməmiş buraya Elmi-Tədqiqat Mərkəzi statusu verildi. İndi bu mərkəzdə 5 nəfər elmlər doktoru, 17 nəfər isə elmlər namizədi çalışır.

Professor Q. Qarayevin tibbi kadrların hazırlanmasında ekspert kimi də xüsusi əməyi vardır. O, 1986-cı ildə müdafiə şurasının üzvü, 1988-1991-ci illərdə isə həmin şuranın sədr müavini və sədri təyin olunmuşdur. Müstəqil ölkəmizin ilk günlərində yeni yaranan Ali Attestasiya Komissiyasının tibb bölməsində əvvəl ekspert, sonralar isə bu bölmənin ekspert şurasının elmi katibi kimi fəaliyyət göstərmişdir. 2013-cü ildən isə ekspert şurasının sədri vəzifəsinə təyin edilmişdir.

Q.Qarayevin təşəbbüsü ilə ATU-nun tarixində ilk dəfə olaraq "Sağlamlıq" elmi jurnalı fəaliyyətə başlamışdır.

O, 2000-ci ildə tibb elminin inkişafında və elmi kadrların hazırlanmasındakı xidmətlərinə görə ölkə başçısının sərəncamı ilə "Əməkdar elm xadimi" adına layiq görülmüşdür.

İstedadlı alim, görkəmli cərrah, sədaqətli dost, qağıkeş ata olan Qalib müəllimi bu şanlı yubileyi münasibətilə təbrik edir, ona bundan sonra da uzun ömür, cansağlığı və elmi axtarışlarında yeni-yeni nailliyyətlər arzulayırıq.

***Elmi- Tədqiqat Mərkəzinin əməkdaşları***

# Üz-çənə nahiyəsində nadir əməliyyat

ATU-nun Tədris Cərrahiyyə Klinikasının ağız və üz-çənə cərrahiyyəsi şöbəsinin müdiri, tibb elmləri namizədi Məhəmməd Davudov bildirmişdir ki, "Bu günlərdə klinikamızın ağız və üz-çənə cərrahiyyəsi şöbəsinə qəbul edilən xəstədə aparılan anamnestik məlumatlara görə, son iki ildə heç bir müalicə aparılmamış və nəticədə şiş böyük ölçülərə çatmışdır. Xəstə bizə müraciət edərkən artıq udqunmanın və nəfəs almanın çətinləşdiyini bildirmişdir.

Belə ki, xəstə qidalana bilmir və yalnız məcburi oturaq vəziyyəti aldığını söyləyirdi. Belə bir vəziyyətdə təbii ki əsas çıxış yolu olaraq cərrahiyyə əməliyyatı düşünüldü-ilk olaraq şiş götürülməli idi. Lakin şiş çox böyük ölçülərə çataraq həyati vacib orqanlara-yuxu arteriyasına, sinirlərə yaxınlaşmışdı. Qida borusunu, udlağı, nəfəs borusunu sıxaraq onların yerini dəyişmişdi. Əməliyyatın icrası çox riskli idi. Hətta əməliyyatdan öncə narkozun verilməsi böyük çətinliklər yaradırdı və anestezioloqdan böyük peşəkarlıq tələb edirdi. Xoşbəxtlikdən əməliyyat zamanı klinikamızın anestezioloji briqadası başda Cavid Paşayev olmaqla bu çətin işin öhdəsindən peşəkarcasına gəldilər. Əməliyyatımız iki mərhələdə icra olundu. İlkin mərhələdə şiş toxuması ətraf toxumalardan, magistral damar-sinir dəstəsindən ayrıldı. Əməliyyat zamanı hətta daxili yuxu arteriyasının rezeksiya olunacağı təqdirdə klinikamızın damar cərrahlarının iştirakı ilə damar autogrefti icrasını da göz önünə almışdıq. Lakin buna ehtiyac olmadı. Yalnız xarici yuxu arteriyası rezeksiya olundu ki, bu da xəstədə heç bir funksional pozğunluq yaratmadı. Şiş toxuması radikal olaraq xaric edildi.

İkinci mərhələdə isə əsas əhəmiyyətli məsələ yaranmış olan toxuma defektinin aradan qaldırılması idi. Baş boyun rekonstruktiv cərrahiyyəsində bir çox dilimlərdən istifadə edilir. Bu dilimlər sərbəst damar ayaqcıqlı, damar ayaqcıqlı, bir və ya bir neçə toxuma komponentini özündə birləşdirən dilimlər olur. Hansı dilimin seçilməsi defektin xüsusiyyətindən, hansı strukturların itkisindən, defektin yerindən, xəstənin bədən quruluşu, cinsi və başqa amillərdən asılı olaraq dəyişir. Təbii ki, buna əməliyyat ərəfəsində tam müayinədən sonra cərrah qərar verir. Biz bu xəstədə damar ayaqcıqlı musculus latissimus dorsi diliminin istifadəsinə qərar verdik. Bu növ rekonstruksiya klinikamızda ilk dəfə idi ki, tətbiq olunurdu. Biz bu əməliyyatı müvəffəqiyyətlə icra etdik və torakodorsal damarlarla qidalanan dəri-əzələ dilimi hazırlandı. Qoltuqaltı çuxurdan körpücüküstü nahiyəyə və boyuna bir tunel yaradıldı, hazırlanan dilim bu tunel vasitəsilə boyun nahiyəsindəki defekt sahəsinə çıxarıldı. Dilim defektin üzərinə qoyularaq tikildi. Donor sahəsindəki yara birincili qapandı.





Belə əməliyyatların icrasının uğurlu olması tək bir cərrahdan asılı deyil. Bunun üçün bu sahədə ixtisaslaşmış klinika, əməliyyat bloku və personalı, anestezioloji və reanimasiya xidmət, təbii ki, həmçinin cərrahi komandanın olması vacibdir. Bu səbəbdən uğurlu əməliyyatımız üçün cərrahi əməliyyat bloku personalına, anestezioloq-reanimatoloqlarımıza, rezidentlərimiz Şahin Quliyev, İlqar Əbilov, Ceyhun Hacıyev, Kənan Əmirəliyev və tibb üzrə fəlsəfə doktarantı Şahin Məhəmmədova təşəkkürümü bildirirəm.

Əməliyyat tarixini yanvarın 6-a salmağımız da təsadüfi olmadı. Klinikamızın və kafedramızın uğuru kimi qiymətləndirilən bu əməliyyatı bu uğurlara hamıdan çox sevinən və bizə daim dəstək olan müəllimimiz, kafedramızın müdiri, professor Çingiz Rəhimovun doğum gününə hədiyyə olaraq icra etdik.

## Ötən il ölkə üzrə 36 min litrdən artıq qan tədarük olunub



Ötən il Mərkəzi Qan Bankı üzrə donor sayı 44 393 nəfər, ümumiyyətlə ölkə üzrə 11 ay ərzində donor sayı 76 692 nəfər təşkil edib.

AZƏRTAC xəbər verir ki, bu rəqəmlər yanvarın 11-də B.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunda keçirilən mətbuat konfransında açıqlanıb. İnstitutun direktoru Zöhrə Əlimirzəyeva bildirib ki, ötən il ölkə üzrə 36 368,9 litr tədarük olunub. Aşura günü 4 141 nəfər könüllü qanvermə aksiyalarında iştirak edib, tədarük edilən qanın miqdarı 1863,8 litr təşkil edib.

Tədbirdə qeyd olunub ki, ölkənin hematologiya və transfuziologiya sahəsi üzrə baş müəssisə olan İnstitut 1943-cü ildən fəaliyyət göstərir. Hazırda İnstitut 3 hissədən ibarətdir: Klinika, Mərkəzi Qan Bankı və elm bölməsi. Klinikanın tərkibinə böyüklər üçün 2 hematoloji şöbə, uşaq hematologiyası şöbəsi, reanimasiya və intensiv terapiya şöbəsi, klinik-diaqnostik laboratoriya və talassemiyanın profilaktika şöbəsi daxildir.

## Həkimlər toyuq yumurtasının faydasını bir daha təsdiqləyiblər



Finlandiyalı alimlər bildiriblər ki, kişilər sağlamlığı möhkəmləndirmək üçün qida məhsulları sırasına yumurtanı da əlavə etməlidirlər.

AZƏRTAC "rosbalt.ru" saytına istinadla xəbər verir ki, yumurta yemək ikinci tip şəkərli diabetin inkişaf riskini 37 faiz azaldır. Yumurta, həmçinin ürək-damar sisteminin möhkəmlənməsinə kömək edir.

Lakin alimlər sübut ediblər ki, bu ərzaq məhsulu kişilər üçün xüsusilə faydalıdır.

Bundan əvvəl bildirilib ki, toyuq yumurtası və ondan hazırlanan yeməklər insanın baş-beyin damarları üçün faydalıdır. Gündə heç olmasa bir yumurta yemək yaşlı adamlarda insult keçirmək ehtimalını 12 faiz azaldır. Toyuq yumurtası döş xərçənginin qarşısını almağa da kömək edir. Onun tərkibində olan Omeqa-6 polidoymamış yağlar döş xərçənginin yaranması riskini azaldır.

## İnsult, ürək xəstəlikləri və diabetdən xilas edən məhsullar

Orqanizmdə mikrodozalarda olan bir çox minerallar orqanizmin fəaliyyətinə çox böyük təsir edir. Bu minerallardan biri maqneziumdur.



Maqnezium ürəyi qoruyur, qan dövranını yaxşılaşdırır, damarları genişləndirir, ağciyərin fəaliyyətini tənzimləyir, qlükozanın mübadiləsində və insulinin ifrazında iştirak edir.

Böyük Britaniya alimləri araşdırmalar nəticəsində sübut ediblər ki, maqneziumla zəngin olan məhsullar orqanizmi ürək xəstəliklərindən, insultdan və diabetdən qoruyur.

Həmçinin alimlərin fikrinə görə, miqren, əsəbilik, depressiya, yorğunluq kimi pozulmalar da orqanizmdə maqneziumun çatışmazlığı ilə bağlıdır.

**Maqneziumla zəngin olan məhsullar bunlardır:** tünd şokolad, kahı, ispanaq, turşəng, qoz-fındıq, günəbaxan, balqabaq tumları, qəhvəyi düyü, arpa, yulaf, lobya, mərci, banan, meyvə quruları, avokado.

Alimlər maqneziumla zəngin olan qidaları rasionda artırılmasını tövsiyə edirlər.

## Stress ürək-damar xəstəlikləri və insult riskini artırır

Beynin amiqdala adlanan hissəsinin yüksək aktivliyi stressə səbəb olur. Bu da insanlarda ürək xəstəlikləri və insult riskini artırır.



AZƏRTAC sciencedaily.com saytına istinadla xəbər verir ki, Harvard Tibb Məktəbinin alimləri bu iddianı araşdırmaq üçün 293 xəstənin üzərində tədqiqat aparıb. Tədqiqatçılar xəstələrin beyin, sümük iliyi, dalaq aktivliyini və arteriyalarının iltihabını qeyd etmək üçün onlar üzərində birləşdirilmiş PET müayinəsi və kompüter tomoqrafiyası həyata keçirib. Xəstələrdə ürək-damar xəstəliklərinin inkişafını müəyyən etmək üçün onlar 3 ildən artıq izlənilib. Nəticədə 22 xəstədə infarkt, angina, ürək çatışmazlığı, insult və periferik arterial xəstəliklərinə rast gəlinib. Belə ki, yüksək amiqdala aktivliyi olanlarda ürək-damar xəstəlikləri riski az aktiv olan insanlara nisbətən çox olub. Alimlər amiqdaladakı yüksək aktivliyin sümük iliyinin fəaliyyəti və arteriyaların iltihabı ilə bağlı olduğunu və bunun ürək-damar xəstəlikləri riskini artırdığını müəyyən ediblər.

**AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ**
**AZƏRBAYCAN TİBB UNİVERSİTETİ**
KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN
**MÜSABİQƏ ELAN EDİR**

**Fakültənin dekanı:**
- Tibbi profilaktika fakültəsi

**Kafedraların müdirləri:**
- Farmakologiya kafedrası
- Farmakoqnoziya və botanika kafedrası
- Yoluxucu xəstəliklər kafedrası
- Ümumi cərrahlıq və anesteziologiya kafedrası

**Kafedraların dosentləri (fəlsəfə doktorları):**
- II mamalıq və ginekologiya kafedrası - 1 yer
- Patoloji fiziologiya kafedrası - 1 yer
- Epidemiologiya kafedrası -1 yer
- Bioloji kimya kafedrası - 1 yer
- Yoluxucu xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- Yoluxucu xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların assistentləri:**
- Oftalmologiya kafedrası - 1 yer (0,5 vahid)
- Terapevtik və pediatrik propedevtika kafedrası - 1 yer
- Uşaq cərrahlığı kafedrası - 1 yer (0,5 vahid)
- Histologiya, embriologiya və sitologiya kafedrası - 1 yer
- Fizioterapiya və idman təbabəti kafedrası - 1 yer (0,5 vahid)
- III uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- Patoloji fiziologiya kafedrası - 1 yer
- Bioloji kimya kafedrası - 1 yer
- Ftiziatriya kafedrası - 2 yer

**Kafedranın baş müəllimi:**
- Farmakologiya kafedrası - 1 yer

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə («Təbib» qəzeti, 16 dekabr 2016-cı il) dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**
**Bakı şəhəri - Az 1007, Ənvər Qasımzadə, 14:**
**Telefon: (012) 597-43-23**

## Etibarsız sayılır

Gərayev Rahil Ağabəy oğluna 2009-cu ildə Azərbaycan Tibb Universiteti tərəfindən şua diaqnostika ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin VI kurs, 147[a] qrup tələbəsi Rüstəmzadə Sadiq Xanlar oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

III uşaq xəstəlikləri kafedrasının əməkdaşları və Tədris Terapevtik Klinikasını III pediatriya şöbəsinin kollektivi Sevda xanım Məmmədovaya əzizi

**Telli xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tibbi fizika və informatika kafedrasının əməkdaşları kafedranın müdiri, professor Zubeyid Tağıyevə və II mamalıq ginekologiya kafedrasının dosenti İradə xanıma əzizləri

**İlqar Əhməd oğlu İmamverdiyevin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# MİNNƏTDARLIQ HİSSİ İLƏ...

Hörmətli Cəmil müəllim!

Həkimlik peşəsi qədim dövrlərdən üzü bəri insan cəmiyyəti üçün ən vacib, ən nüfuzlu peşələrdən biri olmuşdur. Bu gün elmi-texniki tərəqqinin ən yüksək zirvələri fəth etdiyi dövrdə də səhhətində hər hansı problem yaranmış şəxslər üçün həkimlər yenə də ümid yeridir. Sözün həqiqi mənasında bu peşənin məsuliyyətini layiqincə daşıyan tibb işçilərinin bir xoş baxışı, bir mehriban sözü bəzən pasiyentlər üçün müxtəlif müalicə vasitələrindən də faydalı olur.

Məlumat üşün bildirim ki, mənim anam onkoloji xəstədir və bir müddətdir ki, Milli Onkologiya Mərkəzinin invaziv diaqnostika şöbəsində müalicə alır. Sizə bu müraciəti ünvanlamağımın səbəbi bu şəfa ocağında gördüyüm yüksək peşəkarlıq, işinə son dərəcə məsuliyyətlə və vicdanla yanaşan tibbi personalın bir xəstə yaxını kimi məndə doğurduğu minnətdarlıq hissidir. Anamın müalicə aldığı şöbədə xəstələrə xüsusi qayğı ilə yanaşılır, bəşəriyyətin ən böyük bəlalarından olan bu xəstəliyin müalicəsi üçün müasir üsullardan məharətlə istifadə olunur. Sadaladığım və hələ qeyd etmədiyim bir çox müsbət keyfiyyətlərinə, təvazökar davranışına və işinə yüksək intellektual yanaşmasına görə invaziv diaqnostika şöbəsinin müdiri İlqar Allahverdiyevə və anamın müalicə həkimi Ruslan Məmmədova dərin təşəkkürümü bildirirəm.

Rəhbərlik etdiyiniz Milli Onkologiya Mərkəzinin ən müasir avadanlıqlarla təmin olunması, bütün tibbi personalın yüksək ixtisaslı mütəxəssis kimi yetişməsi üçün yaratdığınız şəraitə görə Sizə ailəmiz adından dərin minnətdarlığımı bildirirəm.

**Esmira ABDULLAYEVA,**
*Terapevtik stomatologiya kafedrasının assistenti, tibb üzrə fəlsəfə doktoru*

## Tibb aləmində

## Alimlər insan ömrünü uzadan ölüm testi yaradıblar

Amerikalı və isveçrəli alimlər ürək-damar xəstəliklərindən əziyyət çəkən insanların ömrünü müəyyənləşdirməyə qadir olan ölüm testi işləyib hazırlayıblar.



AZƏRTAC runews24 saytına istinadən xəbər verir ki, ölüm testi qanda trimetilaminoksid (TMAO) molekullarının səviyyəsini təhlil edir. TMAO molekulları insan orqanizmi və sağlamlığı üçün təhlükə törədir, müxtəlif ciddi xəstəliklərin inkişafına səbəb olur. Xüsusilə ət, süd məhsulları və yumurtadan istifadə nəticəsində molekullar damarlarda tromb riskini artırır və qan dövranının pozulmasına gətirib çıxarır. Alimlər yeddiillik tədqiqatlar nəticəsində aydınlaşdırıblar ki, molekulların qanda yüksək olması insanlarda çox vaxt infarkt və insultla nəticələnir.

Ekspertlər hesab edirlər ki, insanlar test vasitəsilə ölümlərinin səbəbini və tarixini müəyyənləşdirərək ömürlərini uzada bilərlər. Bu, onun hesabına baş verəcək ki, onlar öz sağlamlıqlarına daha çox diqqət ayırmalı olacaqlar. Belə ki, insanlar test müayinəsindən sonra qanda TMAO molekullarının səviyyəsini aşağı salacaq preparatlardan istifadə edəcəklər.

## Tədqiqat göstərib ki, depressiya və şizofreniya bir-biri ilə sıx bağlıdır

Sən demə, genetikasında şizofreniyanın inkişafı riski olan insanlar həm də depressiyanın alt növlərindən birinə meyillidirlər. Bunu Edinburq Universitetinin tədqiqatçıları aşkar ediblər.



AZƏRTAC "Deccan Chronicle" saytına istinadla xəbər verir ki, alimlər əldə etdikləri nəticələrin şizofreniya və depressiyanın yeni müalicə metodlarının hazırlanmasına kömək edəcəyinə ümid bəsləyirlər.

Mütəxəssislər depressiyanın genetik səbəblərini tədqiq ediblər. Onlar şizofreniyaya irsi meyilliyi olan insanların genetik səviyyədə depressiyadan əziyyət çəkənlərə oxşayıb-oxşamadıqlarını müəyyən etmək istəyiblər. Tədqiqat göstərib ki, depressiyalı insanlardan ibarət qrupda şizofreniyanın genetik riski yüksəkdir.

Məlumdur ki, şizofreniya və depressiyanın oxşar təzahürləri var. Məsələn, bədbinlik və nevrotizm. Alimlər belə nəticəyə gəliblər: depressiyadan əziyyət çəkən bəzi insanlar şizofreniya ilə bağlı genetik xüsusiyyətlərə malikdir.

## Öskürəyi sağaldan dəmləmə

**Öskürək ayrı xəstəlik deyil, bir çox hallarda soyuqdəymənin simptomu kimi meydana çıxır. Öskürək orqanizmin müdafiə mexanizmidir.**

Öskürəyin köməyi ilə nəfəs yollarımız xəstəlik zamanı burada yığılan mikroblar, toksinlər, selik və s.-dən azad olur. Bu prosesi tezləşdirmək üçün daha çox ilıq maye qəbul etmək məsləhət görülür. Bu zaman selik duruluşur və onun xaric olunması asanlaşır.

Bəzi xalq təbabəti vasitələri nəfəs yollarının daha tez təmizlənməsinə kömək edir. Ən sınanmış reseptlərdən biri:

– 1 çay qaşığı biyan kökü, 1 çay qaşığı dəvədabanı, 1 çay qaşığı bağayarpağı 1 stəkan qaynar suda 30 dəqiqə ərzində dəmlənir, süzülür və gün ərzində qəbul edilir. Bu otlar bəlğəmgətirici və iltihabəleyhinə təsir göstərir, öskürəyin sağalmasını tezləşdirir.



Öskürək 1 həftədən çox davam edərsə, artarsa, bəlğəmdə qan, irin əmələ gələrsə vaxt itirmədən həkimə müraciət olunmalıdır. Bu, ciddi xəstəliyin simptomu ola bilər.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98[c]
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 1800